SAHİBKARLIĞIN VƏ BAZAR İQTİSADİYYATININ İNKİŞAFINA YARDIM FONDU

KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA YARDIM MƏRKƏZİ

# Azərbaycan Respublikası ərazisində 700 (yeddi yüz) kiçik sahibkarlıq subyekti arasında keçirilmiş üzbəüz sorğunun nəticələri ilə əlaqədar

# HESABAT

**28 iyul – 01 sentyabr 2011-ci il**
**Bakı şəhəri**

# MÜNDƏRİCAT

**Xülasə** ..... **3**

**Terminlər** ..... **5**

**Rəy sorğusunun nəticələri** ..... **6**

**Nəticələr** ..... **54**

**Əlavə 1. Rəy Sorğusu Anketi** ..... **56**

# “İqtisadi islahatlara dair dialoqun qurulması” layihəsi çərçivəsində Azərbaycan Respublikası ərazisində 700 (yeddi yüz) kiçik sahibkarlıq subyekti arasında rəy sorğusu

## Xülasə

“İqtisadi islahatlara dair dialoqun qurulması” layihəsi çərçivəsində Azərbaycan Respublikası ərazisində 700 (yeddi yüz) kiçik sahibkarlıq subyekti arasında rəy sorğusu 28 iyul – 01 sentyabr 2011-ci il tarixində həyata keçirilmişdir.

Sorğunun ərazisi əvvəlcədən razılaşdırılmış, Bakı və Azərbaycanın 8 iqtisadi rayonunu əhatə edir. Sorğu keçirilmiş yaşayış məntəqələri və respondentlərin sayı üzrə bölgü aşağıdakı cədvəldə öz əksini tapmışdır.

**Cədvəl 1. Sorğu məntəqələri və respondentlərin sayı**

| № | İqtisadi rayon | Yaşayış məntəqəsinin adı | Respondentlərin sayı |
|---|---|---|---|
| **1.** | | **Bakı** | **280** |
| **2.** | **Abşeron** | | **45** |
| | | Sumqayıt | 45 |
| **3.** | **Gəncə-Qazax** | | **100** |
| | | Gəncə | 60 |
| | | Şəmkir | 40 |
| **4.** | **Şəki-Zaqatala** | | **45** |
| | | Şəki | 25 |
| | | Zaqatala | 20 |
| **5.** | **Lənkəran** | | **45** |
| | | Lənkəran | 25 |
| | | Masallı | 20 |
| **6.** | **Quba-Xaçmaz** | | **35** |
| | | Quba | 20 |
| | | Xaçmaz | 15 |
| **7.** | **Aran** | | **120** |
| | | Kürdəmir | 20 |
| | | Göyçay | 20 |
| | | Salyan | 20 |
| | | Yevlax | 20 |
| | | Şirvan | 20 |
| | | Bərdə | 20 |
| **8.** | **Yuxarı Qarabağ** | | **10** |
| | | Tər-Tər | 10 |
| **9.** | **Dağlıq Şirvan** | | **20** |
| | | Ağsu | 20 |
| | **Cəmi** | | **700** |

Sorğuda iştirak etmiş respondentlərin hüquqi və fiziki şəxs olmaqla bölgüsü aşağıdakı kimidir:

| | |
|---|---|
| Hüquqi şəxs | – 12,3% |
| Fiziki şəxs | – 87,7% |

Sahibkarlıq subyektlərinin iqtisadiyyatın sahələri üzrə bölgüsü aşağıdakı kimidir:

| | |
|---|---|
| Ticarət | – 58,1% |
| Xidmət | – 33,9% |
| İstehsal | – 4,0% |
| Kənd təsərrüfatı | – 4,0% |

Sorğu qabaqcadan hazırlanmış və layihənin icra qrupu tərəfindən təsdiqlənmiş sorğu anketi əsasında həyata keçirilmişdir. Sorğu anketinin tam mətni Əlavə 1-də öz əksini tapmışdır.

Sorğunun həyata keçirilməsi, lazımi məlumatların toplanması, sorğu nəticəsində əldə edilmiş məlumatların xüsusi kompüter proqramı (SPSS) ilə işlənməsi və nəticələrin analizi prosesində yüksəkixtisaslı mütəxəssislər iştirak etmişdir.

# Terminlər

**Sayı** - sualın cavablandırılmasında iştirak edən respondentlərin cavab variantlarına görə miqdarı

**Faiz** - eyni cavab variantı seçmiş respondentlərin sayının sorğuda iştirak etmiş respondentlərin ümumi sayında həcmi, faizlə

**Real faiz** - eyni cavab variantı seçmiş respondentlərin sayının sualı cavablandırmış respondentlərin ümumi sayında xüsusi çəkisi, faizlə

**Faiz artımla** - sualı cavablandırmış respondentlərin ümumi sayı faizlə və artan yekunla

**Cavab verməyənlər** - sualın cavablandırılmasında bu və ya digər səbəbdən iştirak etməmiş respondentlər

# Rəy sorğusunun nəticələri

Qeyd edildiyi kimi rəy sorğusu 700 respondent arasında keçirilmişdir.

**1. Biznesiniz üçün mövcud durum necədir?**

Sual sorğuda iştirak etmiş 700 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Olduqca əlverişli | 54 | 7,7 | 7,7 | 7,7 |
| Əlverişli | 219 | 31,3 | 31,3 | 39,0 |
| Nə yaxşı nə pis | 301 | 43,0 | 43,0 | 82,0 |
| Əlverişsiz | 93 | 13,3 | 13,3 | 95,3 |
| Olduqca əlverişsiz | 25 | 3,6 | 3,6 | 98,9 |
| Cavab verməyə çətinlik çəkirəm | 8 | 1,1 | 1,1 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Sorğuda iştirak etmiş respondentlərin 43,0%-i və ya 301 respondent biznes üçün mövcud durumun nə yaxşı, nə də pis olduğunu qeyd etmişdir. Əslində bu cavab variantının daha çox səs toplaması heç də yaxşı hal deyil. Lakin növbəti yerlərdə duran cavab variantları vəziyyətin yaxşıya doğru inkişaf etdiyindən xəbər verir. Belə ki, növbəti yerdə 31,0%-lə (və ya 219 respondent) "Əlverişli" cavab variantı qərarlaşmışdır. Bu da inkişafın müsbət yönümdə getdiyindən xəbər verir. Üçüncü yerdə 13,3%-lə (və ya 93 respondent) "Əverişsiz", dördüncü yerdə 7,7%-lə (və ya 54 respondent) "Olduqca əlverişli" və beşinci yerdə 3,6%-lə (və ya 25 respondent) "Olduqca əlverişsiz" cavab variantları durur. Respondentlərin 1,1%-i və ya 8 respondent bu sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir.

## 2. Son illərdə biznesiniz genişlənibmi?

Bu sual da sorğuda iştirak etmiş bütün respondentlər (700 nəfər) tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli, xeyli | 116 | 16,6 | 16,6 | 16,6 |
| Birqədər | 266 | 38,0 | 38,0 | 54,6 |
| Nə artmayıb, nə də azalmayıb | 299 | 42,7 | 42,7 | 97,3 |
| Cavab verməyə çətinlik çəkirəm | 19 | 2,7 | 2,7 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Gördüyümüz kimi biznesi dəyişməz qalanlar üstünlük təşkil edir (42,7% və ya 299 respondent). Biznesi bir qədər genişlənmiş respondentlər 38% (və ya 266 respondent), xeyli genişlənmiş respondentlər isə 16,6%-dir (və ya 116 respondent). Sorğuda iştirak edənlərin 2,7%-i və ya 19 respondent bu sualı cavablandırmağa çətinlik çəkdiyini bildirmişdir.

**3. Biznesinizin elə həmin sahədə və ya hər hansı başqa sahədə genişləndirilməsini planlaşdırırsınızmı?**

Sualın cavablandırılmasında 700 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli üç ay ərzində | 63 | 9,0 | 9,0 | 9,0 |
| Bəli altı ay ərzində | 56 | 8,0 | 8,0 | 17,0 |
| Bəli bir il ərzində | 162 | 23,1 | 23,1 | 40,1 |
| Xeyr | 299 | 42,7 | 42,7 | 82,9 |
| Cavab verməyə çətinlik çəkirəm | 120 | 17,1 | 17,1 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Sorğuda iştirak etmiş respondentlərin 42,7%-i və ya 299 respondent yaxın zamanlarda biznesini genişləndirməyi planlaşdırmadığını qeyd etmişdir. 23,1% və ya 162 respondent isə bir il ərzində biznesini genişləndirmək niyyətində olduğunu qeyd etmişdir. Növbəti yerlərdə 17,1%-lə (və ya 120 respondent) “Cavab verməyə çətinlik çəkirəm”, 9,0%-lə (və ya 63 respondent) “Bəli, üç ay ərzində” və 8,0%-lə (və ya 56 respomdemt) “Bəli, altı ay ərzində” cavab variantları durur.

## 4. Dövlət orqanlarından Sizin ofisə yoxlama məqsədi ilə tez-tezmi gəlirlər?

Sualı 700 respondent cavablandırmışdır.




| | Ən azı həftədə bir dəfə | Ən azı ayda bir dəfə | Ən azı yarım ildə bir dəfə | Ən azı ildə bir dəfə | Hələ ki gəlmə-yib |
|---|---|---|---|---|---|
| Vergilər Nazirliyi | 10 | 212 | 183 | 229 | 66 |
| İqtisadi İnkişaf Nazirliyi | | 12 | 136 | 209 | 343 |
| Fövqəladə Hallar Nazirliyi | 3 | 67 | 202 | 179 | 249 |
| Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi | 2 | 9 | 38 | 66 | 585 |
| Polis | 79 | 213 | 39 | 17 | 352 |
| Milli Təhlükəsizlik Nazirliyi | 1 | 1 | 8 | 32 | 658 |
| Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | 8 | 25 | 90 | 576 |
| Rayon İcra Hakimiyyəti | 2 | 17 | 34 | 93 | 554 |
| Sanitar-Epidiomoloji qurumlarından | 11 | 114 | 47 | 131 | 397 |
| Digər | 1 | 7 | 1 | | |

**5. Müşahidələrinizə əsasən, məmurların ziyarəti (tək Sizi deyil, ümumiyyətlə) daha çox hansı məqsəd daşıyır?**

Sualın cavablandırılmasında 700 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Qanuni yoxlama | 386 | 55,1 | 55,1 | 55,1 |
| Aylıq və ya illik haqq tələbi | 161 | 23,0 | 23,0 | 78,1 |
| Sahibkarın fəaliyyət sahəsini dəyişməsi tələbi | 1 | ,1 | ,1 | 78,3 |
| Sahibkarın dükanının müəssisəsinin və s. yerini dəyişməsi | 3 | ,4 | ,4 | 78,7 |
| Kimisə işə götürməsi tələbi | 6 | ,9 | ,9 | 79,6 |
| Və s | 31 | 4,4 | 4,4 | 84,0 |
| Cavab verməyə çətinlik çəkirəm | 112 | 16,0 | 16,0 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Sevindirici haldır ki, respondentlərin 55,1%-i və ya 386 respondent məmurların məhz qanuni yoxlama ilə əlaqədar müəssisələri ziyarət etdiyini qeyd etmişdir. Lakin 23,0% və ya 161 respondent bu ziyarətlərin aylıq və ya illik haqq tələbi xarakteri daşıdığını vurğulamışlar. Bu da öz növbəsində hələ də məmur sahibkar münasibətlərində çatışmazlıqların qaldığından xəbər verir. 16,0% və ya 112 respondentin bu sualı cavablandırmaqda çətinlik çəkdiyini nəzərə almasaq, digər cavab variantları ümumilikdə 5,5% (və ya 41 respondent) səs toplamışdır.

**6. 2011-ci ilin əvvəlindən korrupsiyanın azaldılması məqsədilə ölkə rəhbərliyi tərəfindən bir sıra ciddi addımlar atılmışdır. Siz bunun nəticəsində rüşvət tələblərinin azalmasını artıq hiss edirsinizmi?**

Sual 700 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli, vəziyyət xeyli yaxşılaşıb | 151 | 21,6 | 21,6 | 21,6 |
| Vəziyyət qismən yaxşılaşıb | 321 | 45,9 | 45,9 | 67,4 |
| Dəyişiklik hələ hiss olunmur | 177 | 25,3 | 25,3 | 92,7 |
| Cavab verməyə çətinlik çəkirəm | 51 | 7,3 | 7,3 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Məlum olmuşdur ki, 2011-ci ilin əvvəlindən korrupsiyanın azaldılması məqsədilə ölkə rəhbərliyinin atdığı addımlar öz bəhrəsini verməyə başlamışdır. Belə ki, respondentlərin 45,9%-i və ya 321 respondent vəziyyətin qismən yaxşılaşdığını, 21,6%-i və ya 151 respondent isə xeyli yaxşılaşdığını qeyd etmişdir. Yalnız 25,3% və ya 177 respondent heçbir dəyişiklik baş vermədiyini vurğulamışdır. Sorğuda iştirak etmiş respondentlərin 7,3%-i və ya 51 respondent bu suala cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir.

**7. Siz işlədiyiniz iqtisadiyyat sektorunda rəqabət şərtlərini necə qiymətləndirirsiniz?**

Bu sual da sorğuda iştirak etmiş bütün respondentlər (700 respondent) tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Ədalətlidir | 413 | 59,0 | 59,0 | 59,0 |
| Ədalətsizdir | 184 | 26,3 | 26,3 | 85,3 |
| Cavab verməyə çətinlik çəkirəm | 103 | 14,7 | 14,7 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Sevindirici haldır ki, respondentlərin mütləq əksəriyyəti (59,0% və ya 413 respondent) rəqabət şərtlərini ədalətli sayır. Yalnız 26,3% və ya 184 respondent rəqabət şərtlərinin ədalətsiz olduğunu qeyd etmişdir. 14,7% və ya 103 respondent bu sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir.

**8. Siz lisenziya almalı olmusunuzmu?**

Sual 700 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 310 | 44,3 | 44,3 | 44,3 |
| Xeyr | 390 | 55,7 | 55,7 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Araşdırmalar göstərir ki, kiçik sahibkarlıq subyektləri əsasən spirtli içki və siqaret satışı ilə əlaqədar lisenziyaların alınması üçün müraciət etməli olurlar. Beləliklə, sorğuda iştirak etmiş respondentlərin yalnız 44,3%-i və ya 310 respondent lisenziya almalı olduğunu bildirmişdir.

**9-cu sual 8-ci sualda lisenziya almalı olmuş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 12-ci sualdan başlayaraq davam etdirilmişdir.**

**9. Lisenziya almaq Sizə çətinmi olub?**

Bu sualın cavablandırılmasında 310 respondent iştirak etmişdir.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Bəli | 95 | 13,6 | 30,6 | 30,6 |
| | Xeyr | 215 | 30,7 | 69,4 | 100,0 |
| | Cəmi | 310 | 44,3 | 100,0 | |
| Cavab | verməyənlər | 390 | 55,7 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Gördüyümüz kimi yalnız 30,6% və ya 95 respondent lisenziya alarkən müəyyən çətinliklərlə üzləşdiyini qeyd etmişdir.

**10-cu sual sorğunun şərtlərinə uyğun olaraq 9-cu sualda lisenziya alarkən çətinliklərlə üzləşmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 12-ci sualdan başlayaraq davam etdirilmişdir.**

## 10. Çətinliklər nədən ibarət olub? (bir neçə cavabı seçə bilərsiniz)

Sualın cavablandırılmasında 95 respondent iştirak etmişdir. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 87 respondent 1 və 8 respondent 2 cavab variantı seçmişdir.

| | | Respondent | |
|---|---|---|---|
| | | Sayı | Faiz |
| | Lisenziya verən müvafiq dövlət qurumunda süründürməçilik | 55 | 53,4% |
| | Qaydalar birmənalı və aydın deyil | 21 | 20,4% |
| | Lisenziya almaq üçün müxtəlif dövlət qurumlarından arayış xarakterli sənədlərin toplanması | 27 | 26,2% |
| | Başqa çətinlik | 0 | 0,0% |
| Cəmi | | 103 | 100,0% |




Lisenziya alarkən çətinliklərlə üzləşmiş respondentlərin 53,4%-i və ya 55 respondent əsas çətinlik kimi süründürməçiliyi qeyd etmişlər. Respondentlərin daha 26,2%-i və ya 27 respondent lisenziya alarkən çoxlu sayda sənəd toplamaq lazım olduğundan şikayət etmişlər. Nəhayət, 20,4% və ya 21 respondent qaydaların birmənalı və aydın olmadığından narazıçılığını bildirmişdir.

**11. Fikrinizcə sahibkarlıq fəaliyyəti üçün lisenziya və ya hər hansı icazə almaq rüşvətsiz mümkündürmü?**

Sual 95 respondent tərəfindən cavablandırılmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Bəli | 16 | 2,3 | 16,8 | 16,8 |
| | Bəli, lakin asan deyil, çox vaxt və əsəb itirirsən | 26 | 3,7 | 27,4 | 44,2 |
| | Xeyr | 53 | 7,6 | 55,8 | 100,0 |
| | Cəmi | 95 | 13,6 | 100,0 | |
| Cavab | verməyənlər | 605 | 86,4 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Sualı cavablandırmış respondentlərin mütləq əksəriyyəti (55,8% və ya 53 respondent) rüşvətsiz lisenziya almağın qeyri-mümkün olduğunu qeyd etmişlər. 27,4% və ya 26 respondent bunun mümkün olduğunu, lakin çox vaxt və əsəb tələb etdiyini vurğulamışdır. Yalnız 16,8% və ya 16 respondent rüşvətsiz lisenziya almaq mümkün olduğunu bildirmişdir.

Rüşvətsiz lisenziya almaq mümkün olmadığını bildirmiş respondentlərin rayonlar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:


3; 5,4%
5; 8,9%
3; 5,4%
29; 51,8%
5; 8,9%
1; 1,8%
1; 1,8%
3; 5,4%
1; 1,8%
5; 8,9%
Bakı
Sumqayıt
Şəmkir
Şəki
Zaqatala
Xaçmaz
Salyan
Yevlax
Şirvan
Ağsu

**12. Siz daşınmaz əmlakınızı qeydiyyatdan keçirməli olmusunuzmu?**

Bu sualın cavablandırılmasında 700 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 250 | 35,7 | 35,7 | 35,7 |
| Xeyr | 450 | 64,3 | 64,3 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Respondentlərin yalnız 35,7%-i və ya 250 respondent daşınmaz əmlakını qeydiyyatdan keçirdiyini bildirmişdir.

**13-cü sual yalnız 12-ci sualda əmlakını qeydiyyatdan keçirmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 16-cı sualdan başlayaraq davam etdirilmişdir.**

## 13. Daşınmaz əmlakınızı qeydiyyatdan keçirmək çətinmi olub?

Sual 250 respondent tərəfindən cavablandırılmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Bəli | 67 | 9,6 | 26,8 | 26,8 |
| | Xeyr | 183 | 26,1 | 73,2 | 100,0 |
| | Cəmi | 250 | 35,7 | 100,0 | |
| Cavab | verməyənlər | 450 | 64,3 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Əmlakını qeydiyyatdan keçirmiş respondentlərin yalnız 26,8%-i və ya 67 respondent qeydiyyat zamanı müəyyən çətinliklərlə üzləşdiyini qeyd etmişdir.

**14-cü sual sorğunun şərtlərinə uyğun olaraq 13-cü sualda əmlakı qeydiyyatdan keçirərkən çətinliklərlə üzləşmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 16-cı sualdan başlayaraq davam etdirilmişdir.**

**14. Çətinliklər nədən ibarət olub? (bir neçə cavab seçə bilərsiniz)**

Sual 67 respondent tərəfindən cavablandırılmışdır. Sualın şərtindən asılı olaraq respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilmişdir. Ümumilikdə 71 cavab variantı əldə olunmuşdur: 62 respondent 1, 3 respondent 2 və 1 respondent 3 cavab variantı seçmişdir.

| | | Respondent | |
|---|---|---|---|
| | | Sayı | Faiz |
| | Müvafiq dövlət qurumunda süründürməçilik | 33 | 49,3 |
| | Qaydalar birmənalı və aydın deyil | 10 | 14,5 |
| | Müxtəlif dövlət qurumlarından arayış xarakterli sənədlərin toplanması | 25 | 36,2 |
| | Başqa çətinlik | 3 | 4,2 |
| Cəmi | | 71 | 100,0% |




Əmlakın qeydiyyatdan keçirilməsi zamanı çətinliklərlə üzləşmiş respondentlərin 46,5%-i və ya 33 respondent əsas çətinlik kimi süründürməçiliyi qeyd etmişlər. Respondentlərin daha 35,2%-i və ya 25 respondent çoxlu sayda sənəd toplamaq lazım olduğundan şikayət etmişlər. 14,1% və ya 10 respondent qaydaların birmənalı və aydın olmadığından narazıçılığını bildirmişdir. Nəhayət, 4,2% və ya 3 respondent rüşvət verməli olduğunu vurğulamışdır.

**15. Fikrinizcə sahibkarlıq fəaliyyəti üçün daşınmaz əmlakın qeydiyyatdan keçirilməsi rüşvətsiz mümkündürmü?**

Sualı 67 respondent cavablandırmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Bəli | 9 | 1,3 | 13,4 | 13,4 |
| | Bəli, lakin asan deyil, çox vaxt və əsəb itirirsən | 31 | 4,4 | 46,3 | 59,7 |
| | Xeyr | 27 | 3,9 | 40,3 | 100,0 |
| | Cəmi | 67 | 9,6 | 100,0 | |
| Cavab | verməyənlər | 633 | 90,4 | | |
| Cəmi | | 700 | 100,0 | | |




46,3% və ya 31 respondent əmlakın rüşvətsiz, lakin çox vaxt və əsəb hesabına qeydiyyatdan keçirilməsinin mümkün olduğunu qeyd etmişlər. 40,3% və ya 27 respondent isə bunu rüşvətsiz etmək qeyri-mümkün olduğunu vurğulamışdır. Daha 13,4% və ya 9 respondent əmlakı qeydiyyatdan keçirmək üçün rüşvət tələb olunmadığını bildirmişdir.

Əmlakın rüşvətsiz qeydiyyatdan keçirilməsini qeyd etmiş respondentlərin rayonlar üzrə bölgüsü aşağıdakı kimidir:



3; 11,1%
10; 37,0%
2; 7,4%
8; 29,6%
1; 3,7%
3; 11,1%
Bakı
Şəki
Zaqatala
Salyan
Şirvan
Ağsu

**16. Siz Sahibkarlığa Kömək Milli Fonduna kredit almaq üçün müraciət etmisinizmi?**

Sualın cavablandırılması bütün respondentlər (700 respondent) tərəfindən həyata keçirilmişdir.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 51 | 7,3 | 7,3 | 7,3 |
| Xeyr | 622 | 88,9 | 88,9 | 96,1 |
| Mən ümumiyyətlə belə fondun varlığı haqqında eşitməmişəm | 27 | 3,9 | 3,9 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Sorğuda 700 kiçik sahibkarlıq subyektinin iştirak etdiyini və eyni zamanda, sorğu ərazisinin genişliyinə baxmayaraq, respondentlərin yalnız 7,3%-i və ya 51 respondent Sahibkarlığa Kömək Milli Fonduna müraciət etdiyini bildirmişdir. 88,9% və ya 622 respondent bu fonda müraciət etmədiyi, 3,9% və ya 27 respondentin isə belə bir fondu ümumiyyətlə tanımadığı məlum olmuşdur.

**17-ci sual yalnız 16-cı sualda "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir. Digər cavab variantı seçmiş respondentlərlə sorğu 19-cu sualdan başlayaraq davam etdirilmişdir.**

**17. Siz Fonddan kredit ala bilmisinizmi?**

Sualın cavablandırılmasında 51 respondent iştirak etmişdir.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Bəli | 25 | 3,6 | 49,0 | 49,0 |
| | Xeyr | 26 | 3,7 | 51,0 | 100,0 |
| | Cəmi | 51 | 7,3 | 100,0 | |
| Cavab | verməyənlər | 649 | 92,7 | | |
| Cəmi | | 700 | 100,0 | | |

Fonda müraciət etmiş respondentlərin 49,0%-i və ya 25 respondent kredit aldığını, 51,0% və ya 26 respondent isə ala bilmədiyini qeyd etmişdir.

## 18. Kredit almaq əlavə xərclər (rüşvət) tələb edibmi?

Sualı 51 respondent cavablandırmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Bəli | 8 | 1,1 | 15,7 | 15,7 |
| | Xeyr | 31 | 4,4 | 60,8 | 76,5 |
| | Cavabdan imtina edirəm | 12 | 1,7 | 23,5 | 100,0 |
| | Cəmi | 51 | 7,3 | 100,0 | |
| Cavab | verməyənlər | 649 | 92,7 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Sevindirici haldır ki, kredit üçün müraciət etmiş sahibkarların mütləq əksəriyyəti (60,8% və ya 31 respondent) rüşvətlə üzləşmədiyini qeyd etmişdir. 23,5% və ya 12 respondent rüşvət tələb olunduğunu bildirdiyi halda, 15,7% və ya 8 respondent cavab verməkdən ümumiyyətlə imtina etmişdir.

Sahibkarlığa Kömək Milli Fondunda rüşvətlə üzləşmiş sahibkarların rayonlar üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:



**19. Siz özünüzü məmurların özbaşınalığından müdafiə olunmuş hesab edirsinizmi?**

Sual 700 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 184 | 26,3 | 26,3 | 26,3 |
| Qismən | 335 | 47,9 | 47,9 | 74,1 |
| Xeyr | 115 | 16,4 | 16,4 | 90,6 |
| Cavab verməyə çətinlik çəkirəm | 66 | 9,4 | 9,4 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Sorğuda iştirak etmiş respondentlərin 47,9%-i və ya 335 respondent məmur özbaşınalığından qismən və 26,3%-i və ya 184 respondnet tam müdafiə olunduğunu qeyd etdiyi halda, 16,4% və ya 115 respondent ümumiyyətlə müdafiə olunmadığını vurğulamışdır. 9,4% və ya 66 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir

Özünü məmur özbaşınalığından müdafiə olunmamış hiss edən respondentlərin rayonlar üzrə bölgüsü aşağıdakı kimidir:



2; 1,8%
3; 2,6%
5; 4,4%
1; 0,9%
2; 1,8%
3; 2,6%
4; 3,5%
7; 6,1%
3; 2,6%
5; 4,4%
7; 6,1%
8; 7,0%
64; 56,1%
Bakı
Sumqayıt
Gəncə
Şəmkir
Şəki
Zaqatala
Quba
Xaçmaz
Kürdəmir
Göyçay
Salyan
Yevlax
Bərdə

**20. Fikrinizcə, vergi sistemində nəyi dəyişmək lazımdır?**

Sualı 700 respondent cavablandırmışdır. Respondentlərə bir neçə cavab variantı seçmək hüququ verilmişdir. Məhz ona görə də ümumilikdə 735 cavab əldə olunmuşdur: 666 respondent 1, 66 respondent 2 və 1 respondent 3 cavab variantı seçmişdir.

| | | Respondent | |
|---|---|---|---|
| | | Sayı | Faiz |
| | Vergi dərəcələrini aşağı salmalı | 272 | 37,0% |
| | Vergilərin sayını azaltmalı | 192 | 26,1% |
| | Kadrları | 60 | 8,2% |
| | İndiki dövrdə hər şey faydasızdır | 49 | 6,7% |
| | Digər | 10 | 1,4% |
| | Cavab verməyə çətinlik çəkirəm | 152 | 20,7% |
| Cəmi | | 735 | 100,0% |




37,0% və ya 272 cavab variantı vergi dərəcələrinin aşağı salınmasını istəmişdir. 26,1% və ya 192 respondent vergilərin sayını azaltmağı təklif etmişdir. 20,7% və ya 152 respondent sualı cavablandırmaqda çətinlik çəkdiyini bildirmişdir. 8,2% və ya 60 respondent kadrları dəyişməyi, 6,7% və ya 49 respondent isə indiki dövrdə hər şeyin faydasız olduğunu qeyd etmişdir. Daha 1,4% və ya 10 respondent müxtəlif cavab variantları səsləndirmişdir. Bu cavab variantları arasında sadələşdirilmiş vergi həddinin artırılması, cərimə həddinin azaldılması, kənd təsərrüfatı məhsulları emalının vergidən azad edilməsi, rüşvətin aradan qaldırılması və s. vardır.

## 21. Siz vergilərin elektron ödənişi imkanından istifadə edirsinizmi?

Sualı sorguda iştirak etmiş bütün respondentlər (700 respondent) cavablandırmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 217 | 31,0 | 31,0 | 31,0 |
| Bəli və çox razıyam | 22 | 3,1 | 3,1 | 34,1 |
| Hələ ki, yox, lakin hazırlaşıram | 129 | 18,4 | 18,4 | 52,6 |
| Xeyr, ehtiyac duymuram | 332 | 47,4 | 47,4 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Respondentlərin 31,0%-i və ya 217 respondent vergilərin elektorn ödənişi imkanından yararlandığını, 3,1%-i və ya 22 respondent isə bu imkandan çox razı olduğunu bildirmişdir. Daha 18,4% və ya 129 respondent bu imkandan istifadə etməyə hazırlaşdığını qeyd etmişdir. Lakin 47,4% və ya 332 respondent bu ödəniş imkanına ehtiyac duymadığını vurğulamışdır. Vergilərin elektron ödənişi imkanından istifadə etmək istəməyənlərin bu qədər çox olmasını regionlarda kompyuterləşmənin nisbətən ləng getdiyi ilə əlaqələndirmək olar. Lakin bu cavab variantını seçmiş respondentlərin iri şəhərlərdə də az olmadığı, ümüumilikdə elektron ödəniş sisteminin hələ lazımi səviyyədə inkişaf etmədiyi nəticəsinə gəlməyə imkan verir.

“Xeyr, ehtiyac duymuram” cavab variantını seçmiş respondentlərin regionlar üzrə bölgüsü aşağıdkı kimidir:


6; 1,8%
15; 4,5%
13; 3,9%
4; 1,2%
12; 3,6%
133; 40,1%
12; 3,6%
19; 5,7%
11; 3,3%
17; 5,1%
5; 1,5%
4; 1,2%
9; 2,7%
11; 3,3%
23; 6,9%
30; 9,0%
8; 2,4%
Bakı
Sumqayıt
Gəncə
Şəmkir
Şəki
Zaqatala
Lənkəran
Masallı
Quba
Xaçmaz
Kürdəmir
Göyçay
Salyan
Yevlax
Şirvan
Bərdə
Tərtər

22-ci sual 21-ci sualda "Hələ ki yox, lakin hazırlaşıram" və "Xeyr, ehtiyac duymuram" cavab variantlarını seçmiş respondentlərə verilmişdir.

## 22. Vergilərin elektron ödənişi imkanından istifadə etməməyinizin səbəbi nədir?

Sual 461 respondent tərəfindən cavablandırılmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Mənim üçün bu, çətin işdir, mənim elektron sistemində işləmək təcrübəm yoxdur | 193 | 27,6 | 41,9 | 41,9 |
| | Mən elektron sistemə etibar etmirəm, ehtiyat edirəm ki, o zaman hər hansı problem çıxarsa, cavab verməli mən olacağam | 24 | 3,4 | 5,2 | 47,1 |
| | Vergiləri ənənəvi yolla ödəmək daha asandır | 231 | 33,0 | 50,1 | 97,2 |
| | Başqa səbəb | 13 | 1,9 | 2,8 | 100,0 |
| | Cəmi | 461 | 65,9 | 100,0 | |
| Cavab | verməyənlər | 239 | 34,1 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Sualı cavablandırmış respondentlərin 50,1%-i və ya 231 respondent Vergiləri ənənəvi yolla ödəməyin daha asan olduğunu bildirmişdir. 41,9% və ya 193 respondent isə "Mənim üçün bu, çətin işdir, mənim elektron sistemində işləmək təcrübəm yoxdur" cavab variantını seçmişdir. Daha 5,2% və ya24 respondent elektron sistemə etibar etmədiyini qeyd etmişdir. Nəhayət, 2,8% və ya 13 respondent müxtəlif səbəblər göstərmişdir.

**23. Siz xarici ticarət əməliyyatları ilə məşğul olursunuzmu?**

Sual sorğuda iştirak etmiş 700 respondent tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 33 | 4,7 | 4,7 | 4,7 |
| Xeyr | 658 | 94,0 | 94,0 | 98,7 |
| İndi xeyr, əvvəllər olurdum | 9 | 1,3 | 1,3 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Gördüyümüz kimi respondentlərin mütləq əksəriyyəti (94,0% və ya 658 respondent) xarici ticarət əməliyyatları ilə məşğul olmadığını bildirmişdir. 1,3% və ya 9 respondent isə əvvəllər xarici ticarət əməliyyatları ilə məşğul olduğunu qeyd etmişdir. Yalnız 4,7% və ya 33respondent xarici ticarət əməliyyatları ilə məşğul olduğunu vurğulamışıdır.

**24-26-cı suallar 23-cü sualda yalnız "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir. Digər cavab variantları seçmiş respondentlər 27-ci sualdan başlayaraq sorğunu davam etdirmişlər.**

**24. Xarici ticarət əməliyyatlarını həyata keçirərkən sənədlərin rəsmiləşdirilməsi prosedurlarının sayını və mürəkkəbliyini Siz necə qiymətləndirirsiniz?**

Bu sualın cavablandırılmasında 33 respondent iştirak etmişdir.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Olduqca artıq | 11 | 1,6 | 33,3 | 33,3 |
| | Normal | 17 | 2,4 | 51,5 | 84,8 |
| | Cavab verməyə çətinlik çəkirəm | 5 | ,7 | 15,2 | 100,0 |
| | Cəmi | 33 | 4,7 | 100,0 | |
| Cavab | verməyənlər | 667 | 95,3 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Sualı cavablandırmış respondentlərin 33,3%-i və ya 11 respondent xarici ticarət əməliyyatlarını həyata keçirərkən sənədlərin rəsmiləşdirilməsi prosedurlarını olduqca artıq qiymətləndirdiyi halda, 51,5%-i və ya 17 respondent bu prosedurların sayını normal kimi dəyərləndirmişdir. Daha 15,2% və ya 5 respondent sualı cavablandırmaqda çətinlik çəkmimşdir.

## 25. Gömrük rəsmiləşdirməsini keçmək Sizə harada daha rahatdır?

Sualı 33 respondent cavablandırmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Azərbaycan gömrüyündə | 6 | ,9 | 18,2 | 18,2 |
| | Rusiya gömryündə | 1 | ,1 | 3,0 | 21,2 |
| | Gürcüstan gömrüyündə | 5 | ,7 | 15,2 | 36,4 |
| | Türkiyə gömrüyündə | 6 | ,9 | 18,2 | 54,5 |
| | Hər yerdə eynilə pisdir | 3 | ,4 | 9,1 | 63,6 |
| | Hər yerdə eynilə rahatdır | 4 | ,6 | 12,1 | 75,8 |
| | Cavab verməyə çətinlik çəkirəm | 8 | 1,1 | 24,2 | 100,0 |
| | Cəmi | 33 | 4,7 | 100,0 | |
| Cavab | verməyənlər | 667 | 95,3 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Cavab variantlarının sıralanması aşağıdakı kimidir:
Cavab verməyə çətinlik çəkirəm – 24,2% və ya 8 respondent
Azərbaycan gömrüyü – 18,2% və ya 6 respondent
Türkiyə gömrüyü – 18,2% və ya 6 respondent
Gürcüstan gömrüyü – 15,2% və ya 5 respondent
Hər yerdə eynilə rahatdır – 12,1% və ya 4 respondent
Hər yerdə eynilə pisdir – 9,1% və ya 3 respondent
Rusiya gömrüyü – 3,0% və ya 1 nəfər

**26. Gömrükdə broker xidmətindən istifadə etmək necədir?**

Sual 33 respondent tərəfindən cavablandırılmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Məcburi | 3 | ,4 | 9,1 | 9,1 |
| | Könllü | 12 | 1,7 | 36,4 | 45,5 |
| | Cavab verməyə çətinlik çəkirəm | 18 | 2,6 | 54,5 | 100,0 |
| | Cəmi | 33 | 4,7 | 100,0 | |
| Cavab | verməyənlər | 667 | 95,3 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Sualın cavablandırılmasında iştirak etmiş respondentlərin 54,5%-i və ya 18 respondent cavab verməkdə çətinlik çəkdiyini bildirmişdir. 36,4% və ya 12 respondent "Könüllü", 9,1% və ya 3 respondent "Məcburi" cavab variantlatını şeçmişlər.

**27. Siz yaxın keçmişdə (son iki ildə) şirkət bağlamalı olmusunuzmu?**

Sualın cavablandırılmasında 700 respondent iştirak etmişdir.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 38 | 5,4 | 5,4 | 5,4 |
| Xeyr | 662 | 94,6 | 94,6 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Yalnız 5,4% və ya 38 respondent son iki ildə şirkət bağlamalı olduğunu bildirmişdir.

**28-30-cu suallar 27-ci sualda "Bəli" cavab variantını seçmiş respondentlərə verilmişdir.**

**28. Şirkət bağlanarkən sənədlərin rəsmiləşdirilməsi prosedurlarının sayı və mürəkkəbliyini Siz necə qiymətləndirirsiniz?**

Sualı 38 respondent cavablandırmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Olduqca artıq | 16 | 2,3 | 42,1 | 42,1 |
| | Normal | 16 | 2,3 | 42,1 | 84,2 |
| | Cavab verməyə çətinlik çəkirəm | 6 | ,9 | 15,8 | 100,0 |
| | Cəmi | 38 | 5,4 | 100,0 | |
| Cavab | verməyənlər | 662 | 94,6 | | |
| Cəmi | | 700 | 100,0 | | |

Sualı cavablandırmış respondentlərin 42,1%-i və ya 16 respondent prosedurların artıq olduğunu, bir o qədər respondent isə prosedurların normal olduğunu bildirmişdir. 15,8% və ya 6 respondent suala cavab verməyə çətinlik çəkdiyini bildirmişdir.

**29. Şirkətin bağlanmasına Siz nə qədər vaxt (gün) sərf etmisiniz?**

Sual 38 respondent tərəfindən cavablandırılmışdır.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | 1 gün | 1 | ,1 | 2,6 | 2,6 |
| | 4 gün | 3 | ,4 | 7,9 | 10,5 |
| | 5 gün | 2 | ,3 | 5,3 | 15,8 |
| | 6 gün | 1 | ,1 | 2,6 | 18,4 |
| | 1 həftə | 1 | ,1 | 2,6 | 21,0 |
| | 10 gün | 5 | ,7 | 13,2 | 34,2 |
| | 15 gün | 3 | ,4 | 7,9 | 42,1 |
| | 20 gün | 1 | ,1 | 2,6 | 44,7 |
| | 1 ay | 7 | 1,0 | 18,4 | 63,1 |
| | Cavab verməyə çətinlik çəkirəm | 14 | 2,0 | 36,8 | 100,0 |
| Cavab | verməyənlər | 662 | 94,6 | 100,0 | |
| | Total | 700 | 100,0 | | |

Ümumilikdə 63,2% və ya 24 respondent şirkətin bağlanmasına 1 gündən 1 ayadək vaxt sərf etdiklərini qeyd etmişlər. 36,8% və ya 14 respondent bu sula cavab verməyə çətinlik çəkdiyini bildirmişdir.

**30. Şirkəti bağlayarkən Siz hər hansı qeyri-rəsmi ödənişlər etməli olmusunuzmu?**

Suala 38 respondent cavab vermişdir.

| | | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|---|
| | Bəli | 3 | ,4 | 7,9 | 7,9 |
| | Xeyr | 27 | 3,9 | 71,1 | 78,9 |
| | Cavab verməyə çətinlik çəkirəm | 8 | 1,1 | 21,1 | 100,0 |
| | Cəmi | 38 | 5,4 | 100,0 | |
| Cavab | verməyənlər | 662 | 94,6 | | |
| Cəmi | | 700 | 100,0 | | |




Yalnız 7,9% və ya 3 respondent şirkət bağlayarkən qeyri-rəsmi ödəniş həyata keçirdiyini qeyd etmişdir.

**31. Siz hər hansı tikinti işlərinə icazə almalı olmusunuzmu?**

Sual sorğuda iştirak etmiş bütün respondentlər (700 respondent) tərəfindən cavablandırılmışdır.

| | Sayı | Faiz | Real faiz | Faiz artımla |
|---|---|---|---|---|
| Bəli | 168 | 24,0 | 24,0 | 24,0 |
| Xeyr | 532 | 76,0 | 76,0 | 100,0 |
| Cəmi | 700 | 100,0 | 100,0 | |




Sualı cavablandırmış respondentlərin yalnız 24,0%-i və ya 168 respondent tikinti işləri üçün icazə almalı olduğunu bildirmişdir.

**32 və 33-cü suallar 31 ci sualda “bəli” cavab variantını seçmiş respondentlərə verilmişdir. 31-ci sualda “Xeyr” cavab variantını seçmiş respondentlər 34-cü sualdan başlayaraq sorğunu davam etdirmişlər.**

**32. Hansı vaxta icazə ala bimisiniz?**

